

*Mustafa Çəmənli*

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

## (Xatirələr)

(əvvəli ötən şənbə saylarımızda)

Seyfəddin Dağlı "Kirpi" kimi məşhur satirik jurnalın baş redaktoru olmuşdu. Mən onun Cəfər Cabbarlıya həsr etdiyi "Bahar oğlu" romanını məktəbli ikən oxumuşdum, "Kəcil qapısı" romanını da həmçinin. "Mənziliniz mübarək" pyesinin tamaşasına isə Azdramanın səhnəsində baxmışdım  Otaq darısqal olduğundan Seyfəddin Dağlı ilə Vaqif Səmədoğlu əlyazmaları evdə redaktə edirdilər. Bununla belə vaxtaşırı nəşriyyata gəlirdilər. Vaqif Səmədoğlu mənim uşaqlıqdan çox sevdiyim böyük şairimiz Səməd Vurğunun oğluydu. Şeirləri üslub və mövzu baxımından atasının poetik irsindən tam fərqliydi. Atasının sağlığında lap uşaq yaşlarından evlərində kimləri görməmişdi. Dövrünün bütün görkəmli ədəbiyyat və sənət adamları onların qonağı olmuşdu. Özünün dediyi kimi, biz Abdulla Şaiqin "Ala-bula boz keçi"sini dərslik kitablarından oxuyanda, Vaqif uşaq vaxtı yaxın qohumları olan Abdulla Şaiqin dizləri üstündə oturub bu şeirləri onun öz dilindən eşitmişdi. Əlbəttə, belə bir mühitdə böyüyüb tərbiyə almaq yaradıcı adam üçün xoşbəxtlikdir. Vaqif Səmədoğlu azad və sərbəst bir adamdı. Cibində daim meşin cildli bloknot, karandaş və pozan olardı. O, nəşriyyatın partiya iclaslarında belə söz alıb danışmaz, bloknotunu çıxarıb nəsə yazar, nəyisə pozar, belə demək olarsa, partiyanın qərar və qətnamələrini unudub öz yaradıcılığı ilə məşğul olardı. Mən bir dəfə ondan iclas vaxtlarında nə yazdığını soruşdum. Cavabında dedi ki, ağlıma gələn misraları, qafiyələri qeyd edirəm, sonra bunları şeirə çevirirəm. Vaqif Səmədoğlu daim yazırdı, amma qətiyyən çap etdirməyə, kitabını nəşriyyatlardan birinin tematik planına saldırmağa can atmırdı. Bu da onda, çap olunmasa belə, istedadlı bir şair kimi heç zaman unudulmayacağına dərin inamdan doğurdu. Həm də qlavlitin mənasız sorğu-sualına cavab verməyə həvəsi yox idi. Doğrusu, Vaqif yaradıcılıqdan, şeirlərinin dəyərindən, yaxud da başqa bir şairin yaradıcılığı barədə, demək olar, danışmazdı. Ancaq o, nədən danışsaydı, maraqlıydı. Bir dəfə atasının 1952-ci ildə ölkə rəhbəri Mir Cəfər Bağırovun qəzəbinə tuş gəldiyini, buna görə də ev dustağı olduğunu bizə danışdı. Hətta Qazaxıstana sürgün olacaqları günü gözlədiklərini söylədi. Deyirdi ki, Səməd Vurğun özünü və ailəsini bu sürgündən xilas etmək üçün ev dustağı olan dövrdə "Zamanın bayraqdarı" poemasını yazmışdı. Vaqif heç kəsin qarasına söylənmədən onu da xatırlayırdı ki, o ağır gündə qorxudan qapılarını döyən də yoxmuş. Amma bir gün Xan Şuşinski böyük bir qazanda plov bişirtdirib, aşqarası ilə bir yerdə onlara göndəribmiş.

Yazıçı Manaf Süleymanov isə qəzəbə gəlmiş Səməd Vurğunla Mir Cəfər Bağırovun o ağır günlərdəki görüşünü belə xatırlayır:

"... Mərkəzi Komitədə xüsusi şöbədə işləyən instruktor nəql edirdi ki, ÇEKA-dan xüsusi bir qovluq gətirdilər ki, bunu verərsiz kişiyə. Banderol bir neçə yerdən surquclanıb peçatlanmışdı. Novikova gəlib apardı.

Neçə gün sonra mən Bağırovun kabinetində mühüm bir işi yoxlaya-yoxlaya sənədləyirdim. Mir Cəfər arabir yaxınlaşıb sənədlərə, akt və kağızlardakı imzalara nəzər yetirirdi.

Xəbər verdilər ki, Səməd Vurğun gəlib. Mir Cəfər dedi: - "Buraxın içəri".

Səməd kabinetə girdi. Mir Cəfər onunla görüşdü və soruşdu: - "Niyə yeni bir şey yazmırsan..."

Səməd qollarını açdı: "Vallah, ilham gəlmir, adamın əlləri..."

"Əlləri işlətmək lazımdır, - Bağırov onun sözünü kəsdi, xəbər aldı, - niyə sən özünə Vurğun təxəllüsü götürmüsən, başqa ad qəhət idi?"

Səməd soruşdu: - "Yoldaş Bağırov, icazə verirsiz hər şeyi olduğu kimi danışım?"

"Danış, danış".

Səməd eşq macərasını nəql etməyə başladı. Mən də kağızlara baxa-baxa qulaq asırdım.

Mir Cəfər birdən səsini ucaltdı: - "Bəs deyirlər sən Vurğun təxəllüsünü simvolik götürmüsən. Əslində, türklərə, Türkiyəyə vurğunsan".

"Yalan deyirlər. İftiradır".

Xeyli söhbətdən və izahatdan sonra Bağırov dedi: - "Get ağlını yığ başına, yaz. - Əli ilə stol üstündəki qovluğa işarə etdi, - bu sənin haqqında yığılan materialdır. Hər şey hazır idi, mənim imzalamağım qalmışdı. Qol çəkmədim. Qərara gəldim əvvəl səninlə danışım. Get, yaz, yarat" (N.Cəfərov. "Dolan kəfkirim dolan", B.:, "Yazıçı", 1993, səh. 117-118).

Həyatın çox ibrətli, həm də qəribə təsadüfünə bax ki, Səməd Vurğun dəfn edilən gün bütün qəzetlər elan vermişdi ki, Sovetlər İttifaqı hərbi tribunalının hökmü icra edilib: "Bağırov Mir Cəfər Abbas oğlu güllələnib".

Deyilənə görə, M.C.Bağırov güllələnəndə qışqırıb: "Daloy intriqa, dazdravstvuyet kommunizm!"

Vaqif Səmədoğlu foto azarkeşiydi. Yanında həmişə fotoaparat olardı. Nə zaman nəşriyyata gəlsəydi, otağa daxil olan kimi heç bir poza verdirmədən, çox vaxt elə iş prosesində şəklimizi çəkərdi. Əgər bu gün onun çəkdiyi şəkillər aşkarlansa, Allah bilir sayı neçə min olar və Allah bilir onun fotoaparatlarında kimlərin şəkli yoxdur. Əslində bu şəkillərin özü də əyani tarixdir.

Biz kənddən çıxmış gənclərdə hələ üzünü görməyib, xasiyyətinə bələd olmadığımız, amma məktəb və kənd kitabxanalarından əsərlərini əldə edib acgözlüklə oxuduğumuz yazıçılara, şairlərə qəribə bir heyranlıq, vurğunluq vardı. Biz kənd uşaqları təbiətlə təmasda, ünsiyyətdə böyümüşdük. Sadəlik və sadəlövhlük ruhumuza hopmuşdu. Bəzən, bəlkə də çox vaxt, yaradıcılıqla şəxsiyyətin üst-üstə düşməməsini ağlımıza belə gətirmirdik. Biz yaradıcı adamları ideallaşdırırdıq və ideal görmək istəyirdik.

Görkəmli Kolumbiya yazıçısı Qabriel Markes belə bir fikir söyləyib ki, külək olmasaydı, dünyada çox şey dəyişərdi, amma ədəbiyyat olmasaydı, heç nə. Doğrusu, mən böyük yazıçının bu fikri ilə qətiyyən razılaşa bilmərəm. Allah bilir Markes bu fikrini kefinin hansı vaxtında deyib. Yox, böyük yazıçı məni bağışlasın, ədəbiyyat olmasaydı, insanda bəşəri duyğular, ali hislər, yüksək mənəviyyat, kamillik, fəzilət və s. dəyərlər olmazdı. Çox şeylərdən, çox-çox mənəvi dəyərlərdən uzaq düşər, qəlbi, ruhu yoxsul insan sürüsü olardıq. Şəxsən bir insan olaraq məndə nə müsbət keyfiyyət varsa, öncə valideynlərimə, qan yaddaşıma və yazarlarımıza, musiqimizə borcluyam.

Mən Vətəni geniş anlamda Səməd Vurğunun "Azərbaycan" şeirini oxuyub əzbərləyəndən sonra sevmişəm.

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam məskənimsən.**
**Anam, doğma vətənimsən.**
**Ayrılarmı könül candan,**
**Azərbaycan, Azərbaycan?!**

Elə bir azərbaycanlı olarmı ki, "Azərbaycan" şeirini oxuyanda qəlbi coşmasın.

**Vətən əcdadımızın mədfənidir,**
**Vətəni - övladımızın məskənidr.**
**Vətəni sevməyən insan olmaz,**
**Olsa, ol şəxsdə vicdan olmaz -**



söyləyən Abbas Səhhətin bu əbədi vəsiyyətini hansı azərtürk övladı unudar! Sovet dövründə, İranla Şimali Azərbaycan arasında quş da uça bilmədiyi bir vaxtda Mirzə İbrahimovun "Gələcək gün"ü, Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz"i, Pənahi Makulunun "Səttar xan"ı, Süleyman Rüstəmin cənub şeirləri - məşhur "Təbriz"im şeiri, Şəhriyarın "Heydərbabaya salam" poeması və s. əsərlər olmasaydı, Cənub həsrətiylə yanardıqmı? O taydakı şəhərlərimizdə, kəndlərimizdə yaşayan dili bir, qanı bir soydaşlarımızdan xəbərimiz olardımı? Qətiyyən! İndi yüz minlərlə soydaşımızın Təbriz stadionunda al bayrağımıza sarınıb: Qarabağ bizimdi, bizim olacaq! - deyə hayqırması bu ayrılıq həsrətimizin əks-sədasıdır.

İndi Allahımın lütfü ilə mən gəlib elə bir nəşriyyata düşmüşdüm ki, adını eşitdiyim, kitablarını oxuyub zövq aldığım sənətkarların bir çoxunu canlı görür, ünsiyyətdə olur, əsərlərinin əlyazmasını redaktə edir, fikir bölüşür, mübahisə edir, bəziləri ilə də çiyin-çiyinə işləyirdim. Mən həyatda olmayan hər hansı müəllifin əsərini oxuyanda redaktor kimi, bir növ özümü onun mənəvi vəkili, varisi hesab edirdim, bu gün də belədir. Əlimi ürəyimin üstünə qoyub inamla deyə bilərəm ki, onların əsərlərinə kiçicik bir xətər toxunmasına belə heç vaxt yol verməmişəm, əksinə, daha nəfis, qüsursuz çıxmasına çalışmışam. Çünki redaktoru olduğum hər bir dəyərli kitaba bu günümüzün həqiqətlərini, müasirlərimizin duyğudüşüncəsini, dünyagörüşümüzü və i. və s. keyfiyyətləri gələcəyə daşıyan və səhifələrində yaşadan əvəzsiz xəzinə kimi baxmışam. Xalq yaxşı deyib ki, qələm yazanı qılınc poza bilməz. Bunu anlayanlar üçün nəşriyyatda işləmək məsuliyyətli və şərəfli işdir.

Mən burada uzun illər ərzində korrektoru, redaktoru olduğum bütün kitablar və onların müəllifləri barədə yazmayacağam. Olub-olmuşların hamısını yada salıb qələmə almaq elə də asan iş deyildir. İkinci bir tərəfdən, hər şey haqqında danışmağa dəyməz.

Nəşriyyatın rəhbərliyi əməkdaşlarından kimin nəyə qadir olduğunu özü üçün çox tez müəyyənləşdirirdi. Mənim də ədəbiyyata, incəsənətə, musiqiyə, teatra məhəbbətli olduğum çox tez üzə çıxmışdı. İlk müstəqil redaktə işlərimdən biri Azərbaycan teatrı tarixində müstəsna xidmətləri olan A.A.Tuqanovun "Teatr xatirələri" olmuşdu. Azərbaycan Teatr Cəmiyyətinin sifarişi ilə nəşr olunan bu kiçik həcmli, amma olduqca dəyərli kitabı nəşriyyatın korrektura şöbəsinin müdiri Mahnur Muradova tərcümə etmişdi. Bu kitabda görkəmli rejissorun xatirələrindən ayrı-ayrı fraqmentlər tərcümə olunmuşdu. Bu xatirələrdə A.A.Tuqanov Azərbaycana gəlişindən, böyük dramaturqumuz Cəfər Cabbarlı ilə dostluğundan, onun pyeslərinin səhnə təcəssümündən və başqa hadisə və əhvalatlardan söhbət açır.

Mənim o vaxtlar redaktoru olduğum kitablardan biri də görkəmli opera müğənnisi Hüseynqulu Sarabskinin "Köhnə Bakı" kitabıdır. Müğənninin kitabının əlyazmasını nəşriyyata onun oğlu Azər Sarabski atasının anadan olmasının 100 illiyi münasibəti ilə təqdim etmişdi. Lakin o zamankı qayda-qanuna görə gərək əsər oxunaydı, kənar müəlliflərə rəyə veriləydi, eyni zamanda nəşriyyat redaktorunun rəyi olaydı, bundan sonra nəşriyyatın tematik planına salınaydı. Tematik plan isə nəşriyyatdan sonra çoxlu mərhələlərdən keçirdi. Mətbuat Komitəsindən sonra Mərkəzi Komitədə də baxılırdı. Bundan sonra nəşr olunacaq kitabların planı təsdiq olunub çap edilirdi. Bu tematik planın çap olunmuş nüsxələri kitab ticarəti təşkilatlarına - Azərkitaba və Kəndkitaba, Kitabxana kollektoruna göndərilirdi. Çünki tirajı bu təşkilatlar müəyyənləşdirirdi. İkinci bir çətinlik də orasındaydı ki, o dövrdə kompüter yoxdu, əlyazmalarını linatipçi yığırdı (buna mətbəə dilində "qaryaçı-nabor" deyilirdi). Bu çox uzun bir proses idi. Ona görə də redaktə edilib mətbəəyə göndərilən əlyazmalar kitab halında bu günlə müqayisədə həddən artıq gec işıq üzü görürdü. Nəsə, söhbət əsnasında Azər Sarabski mənə dedi ki, bəs, 40-cı illərin əvvəllərində atamı qlavlitə çağırırlar. Atam gedir qlavlitin böyüyünün yanına. Görür ki, Səməd Vurğun da buradadır. Qış ayı imiş. Qlavlitin rəhbəri Sarabskiyə irad tutur ki, kitabınızda varlılardan, qoçulardan, milyonçulardan çox danışmısınız, bu cür səhifələri ixtisar edin. Mübahisə qızışır. Sarabski hirslənib kabineti tərk edir. Mübahisənin bu mərhələyə çatdığını görən Səməd Vurğun "Köhnə Bakı"nın yeganə korrektura nüsxəsini götürüb paltosunun altında gizlədir. Belə bir təsadüf nəticəsində bu dəyərli kitab qorunub saxlanılır. Azər Sarabski onu da söyləmişdi ki, bu kitaba görkəmli rəssam Əzim Əzimzadə rəsmlər çəkibmiş. Söhbət əsnasında Azər Sarabskidən xəbər aldım ki, Əzim Əzimzadənin çəkdiyi rəsmlər sizdə varmı? - Yox, - dedi, - İncəsənət muzeyində olar.

(ardı gələn şənbə sayımızda)